

# Ağdamın azad edilməsi böyük tarixi hadisədir

**Ağdamı Ermənistanın cani və qatil rəhbərlərinin göstərişi, bilavasitə iştirakı ilə 1993-2020-ci ilin noyabr ayına qədər işğalçılar tamamilə dağıdıb, yerlə-yeksan ediblər. Böyük bir şəhəri yer üzündən silməyə çalışıblar, məkrli, yırtıcı niyyətlərini həyata keçirib, bu yerlərin əbədi və əzəli sakinləri olan azərbaycanlılara qarşı cinayət törədiblər, vaxtilə pənah gətirdikləri torpaqlara xəyanət ediblər. Ağdamda bitən ağacları, onun daşını, divarını vəhşiliklə məhv edən düşmən məscidimizi belə təhqir etməkdən çəkinməyib. Vaxtilə Ağdamda iki Şəhidlər Xiyabanı olub. Ermənilər onları dağıdıblar, qəbirləri təhqir ediblər, goreşən kimi məzarları eşib dağıdıblar. Burada həm Birinci Qarabağ müharibəsində şəhid olanlar, həm də Xocalı soyqırımı zamanı qətlə yetirilən dinc sakinlər dəfn edilmişdi. İnsana yaraşmayan, yalnız şovinist ermənilərin törətdiyi bu mənzərəyə baxanda adam dəhşətə gəlir. Görün, biz necə vəhşi bir düşmənə, varvarlara, körpə qatillərinə, erməni faşizminə qalib gəlmişik.**

Ermənistan İkinci Qarabağ müharibəsində məğlub olduqdan sonra üçtərəfli razılaşmaya görə 2020-ci il noyabr ayının 20-də Ağdam şəhərini və rayonun işğal altında qalan ərazilərini tərk etdi, qəhrəman Azərbaycan ordusu bir güllə atmadan Ağdama daxil oldu. Həmin tarixi günlərdən bir il ötür və bu bir il ağdamlıların həyatında, taleyində və gələcək arzularında müstəsna əhəmiyyət kəsb edir. Düşmənin məqsədli şəkildə dağıtdığı Ağdamın xarabalıqları bizi nə qədər ağrıtsa da torpaqlarımızın işğaldan azad edilməsi çox böyük təsəllimizdir, sevincimizdir və indi yer üzərində, bizdən güclü adam ola bilməz. Müzəffər Ali Baş Komandan İlham Əliyevin və rəşadətli ordumuzun dəmir iradəsi və qəhrəmanlığı sayəsində, çox şükür ki, 30 ildən sonra doğma torpağımıza qədəm qoyduq, yurdun havasını udduq, suyundan içdik.

Bir vaxtlar qaynar həyatın olduğu, əməksevər insanların qurub-yaratdıqları abad şəhərdən əsər-əlamət qalmayıb. Erməni işğalçılar xislətlərinə uyğun olaraq, Ağdamın ağ damlarını xarabalığa çeviriblər, şəhəri darmadağın ediblər. Düşmən Ağdam istiqamətində beş müdafiə xətti qurmuşdu, bu da onu göstərir ki, işğalçıların zəbt etdikləri bu yerlərdən çəkilmək fikri olmayıb.

Ötən il noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərində olublar. Dövlətimizin başçısı və birinci xanım Ağdam məscidini ziyarət ediblər. Qeyd edək ki, Birinci Qarabağ müharibəsində şəhid olanların dəfn edilməsində din xadimlərinin fədakarlığı heç zaman unudulmur və Xocalı soyqırımında sağ qalan xocalılıların ümid, pənah yerinə çevrilən qoşa minarəli məscid də yırtıcı düşmən tərəfindən vəhşicəsinə dağıdılıb. Prezident İlham Əliyev Məkkədən gətirdiyi "Qurani-Kərim"i Ağdam məscidinə bağışladı.

Həmin günlərdə nə qədər qürurlu anlar yaşadıq, sevincdən, fərəhdən ürəyimiz köksümüzdə qabardı, uşaqdan tutmuş ağsaqqallara kimi hamı Prezidentə, əsgər və zabitlərimizə minnətdarlıq bildirirdi. İşğaldan azad edilən Ağdamda unudulmaz və şərəfli bir mərasimin şahidi olduq. Dövlətimizin başçısı Ağdamda Azərbaycanın üçrəngli bayrağını qaldırdı. 27 ildən sonra işğaldan azad olunan Ağdamda indi dövlət bayrağımız qürurla dalğalanır.

Ağdamın xarabalıqlarından bütün dünyaya səslənən Prezident İlham Əliyev çox böyük qətiyyət və inamla bildirdi ki, biz bu torpaqlara Azərbaycan xalqının, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qayıtmışıq: “Mən bütün beynəlxalq təmaslarımda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini, tarixi həqiqətləri və mövcud vəziyyəti bütün həmkarlarıma çatdırmışdım. Mənim demək olar ki, bütün ikitərəfli beynəlxalq təmaslarımda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi xüsusi yer alır. Mənim bütün çıxışlarıma baxmaq kifayətdir. Son 17 il ərzində demək olar ki, bütün çıxışlarımda bu məsələ ilə bağlı öz fikrimi bildirmişdim, dünya ictimaiyyətini məlumatlandırmışdım. Çünki əfsuslar olsun ki, 1990-cı illərin əvvəllərində münaqişə ilə bağlı dünyada dolğun təsəvvür yox idi, təhrif edilmiş məlumat var idi. Erməni lobbisi tərəfindən ortalığa atılmış məlumat var idi. Burada beş müdafiə xətti var. Düşmən bizi buradan gözləyirdi. Biz imkan verə bilməzdik ki, düşmənin gözlədiyi yerdən hücuma keçək. Biz bu istiqamətdə kifayət qədər böyük hərbi birləşmə saxlamışdıq ki, düşmənin hərbi qüvvələri də burada qalsın, başqa yerə getməsin”.

Qarabağ uğrunda gedən döyüşlərdə, böyük siyasət meydanında və dünyanın heyrətlə izlədiyi informasiya müharibəsində qətiyyətlə döyüşən, sözün əsl mənasında mübarizə aparan Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 gün davam edən Vətən müharibəsində, özü də hər gün qazanılan Zəfərə imza atıb. 44 gün ərzində Azərbaycan bir yumruq kimi birləşib cəbhədən gələn xəbərləri həyəcanla, necə deyərlər, kirpik qatlamadan, səbirsizliklə gözləyib. Rəşadətli Azərbaycan Silahlı Qüvvələri uzun illər Ermənistanın işğalı altındakı kənd və qəsəbələri, şəhərləri azad edərək düşmən ordusunu məğlubiyyətə uğradıb.

Yuxarıda qeyd etdiyimiz kimi, ağdamlıların həyatında yeni bir dövr başlayıb: Böyük Qayıdış! İllərlə bu günü gözləmişik. Nəhayət həmin ilahi an gəlib çatdı. Bu il may ayının 28-də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev işğaldan azad edilən Ağdam şəhərinin yenidən qurulmasının ilk təməl daşını qoydu. 28 May Müstəqillik Günü ilə yanaşı, Ağdam şəhərinin bərpasının başlanğıc günü kimi də tarixə yazıldı. Haqq, ədalət öz yerini tutdu, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinə yetirdi.

Elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır. Ovqatımızı, ruhumuzu, duyğularımızı, arzularımızı təzələyən bu sözləri Azərbaycan xalqına misilsiz qələbə bəxş edən Qalib Ali Baş Komandan İlham Əliyev Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə deyib. İndi azad edilən torpaqlarda çox böyük layihələr həyata keçirilir. Bərdə - Ağdam avtomobil yolunun, eyni zamanda dəmiryol xəttinin çəkilişi həmin layihələrin tərkib hissəsidir. Bu sıradan bir yol tikintisi deyil. Bu yol Böyük Qayıdış yoludur. Bizi yurdumuza, işğaldan azad edilmiş ərazilərə aparan yoldur.

Ağdam şəhəri yenidən qurulur, Prezidentin tapşırığına uyğun olaraq, birləşdirilən kəndlərlə və əhalinin artımı da nəzərə alaraq şəhər 100 min nəfər əhali üçün planlaşdırılıb. Vaxtilə Ağdam şəhərinin ərazisi 700-800 hektar olub. İndi şəhərin ərazisi iki dəfə böyüdülür. Bir sözlə, Ağdam Azərbaycanın böyük sənaye və turizm şəhərlərindən biri olacaq. İşğaldan azad edilmiş Ağdam şəhərində Sənaye Parkının inşasına başlanılıb. İlkin olaraq Sənaye Parkında sosial sahənin tikintisi həyata keçirilir. Artıq Parkın bu sahəsində inşaat işləri yekunlaşmaq üzrədir.

Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov bildirib ki, ilkin olaraq sənaye zonasının tikintisində çalışacaq fəhlə və mühəndis kollektivinin yaşayışı üçün lazımi şərait yaradılacaq. Sosial sahədə inzibati bina, ofis və resurs təlim mərkəzi, bank və sığorta xidmətləri, gömrük xidməti, laboratoriya, idman və sağlamlıq mərkəzi, idman meydançası, tibb məntəqəsi, qonaq evi, köşk, kafe, bərbərxana, camaşırxana, avtopark və istirahət parkı fəaliyyət göstərəcək.

Ümumilikdə isə Ağdam Sənaye Parkında İqtisadi Zonaların İnkişafı Agentliyi üçün mobilizasiya, qida sənayesi müəssisələri, kiçik istehsal və xidmət müəssisələri, istehsal sahəsi, tikinti materiallarının satışı, TIR parkı, texnika təmiri sahəsi, texniki zona və iri sənaye müəssisələri üçün nəzərdə tutulmuş sahələr olacaq. Burada tikinti materiallarının istehsalı müəssisələrinin yaradılması, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının, şərab, yem, gübrə istehsalı və emalının, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların təşkili nəzərdə tutulub.

Sənaye mərkəzində kiçik istehsal və xidmət müəssisəsi, iri sənaye və qida sənayesi müəssisələri də fəaliyyət göstərəcək. Yaxın zamanlarda ilk bir neçə belə müəssisənin tikintisinə başlanması gözlənilir. Ağdamın strateji coğrafi mövqeyi, insan resursları potensialı və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir.

İşğaldan azad ediləndən sonra Ağdamda bərpa və yenidənqurma işlərinə başlanılıb, "Ağıllı şəhər" layihəsi əsasında yeni və müasir bir şəhər inşa edilir, Qafqazın Xirosiması kimi tanınan Ağdam Azərbaycan Prezidentinin və hökumətinin təşəbbüsü ilə regionun ən gözəl şəhərlərindən birinə çevriləcək. Ağdam sülh, əmin-amanlıq şəhəri olacaq, doğma yurdlarından 30 ilə yaxın ayrı qalmış insanların bu torpaqlara təhlükəsiz şəraitdə qayıdışı təmin ediləcək. Ağdamlılar həmin günləri səbirsizliklə gözləyirlər, həm də şəhərin yenidən qurulmasında könüllü iştirak etmək istəyirlər.

**Salman ALIOĞLU,**
**"Respublika".**